AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

26 İYUN 2022-ci il BAZAR № 134 (7316) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

## Silahlı Qüvvələr Günüdür



# Qalib ölkənin yenilmaz ORDUSU

*Yüksək döyüş hazırlıqlı peşəkar Silahlı Qüvvələrimiz regionda sabitliyə təminat verir*






Hər bir dövlətin müstəqilliyinin qazanılmasında və qorunub saxlanmasında ordu quruculuğu vacib amillərdəndir. Ölkəmizdə nizami ordunun yaranması və formalaşması prosesi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun sayəsində bu sahədə vacib addımlar atılmış, ölkədə vahid komandanlığa tabe olan, peşəkar kadrlarla təmin edilmiş Azərbaycan Ordusu yaranmışdır. Hakimiyyətinin bütün dövrlərində Heydər Əliyev ordu quruculuğu məsələlərinə xüsusi həssaslıqla yanaşmış, bu istiqamətdə əvəzsiz xidmətlər göstərmişdir. Hələ sovet dönəmində - 1971-ci ildə Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olmuş, bununla da yerli hərbi kadrların hazırlanması üçün mühüm zəmin formalaşdırmışdı. Ulu öndərin təşəbbüsü və səyi nəticəsində yaranan məktəb Azərbaycan Ordusunun milli kadrlarla təmin olunmasında əvəzsiz rol oynamışdır.

Müstəqilliyini bərpa etdiyi ilk illərdə güclü ordunun olmaması, ayrı-ayrı dəstələrdən ibarət birləşmələrin fəaliyyət göstərməsi nəticəsində ölkəmizdə çox çətin vəziyyət yaranmış və nəticədə torpaqlarımız düşmən tərəfindən işğal olunmuşdu. Yalnız 1993-cü ildə Heydər Əliyevin xalqın tələbi ilə Azərbaycana rəhbərliyə qayıdışından sonra ölkədə hər şeydən əvvəl ordu quruculuğunda ciddi dönüş yaranmışdı. Bu illərdə ölkəmizdə mövcud olan, ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ulu öndər Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edilmiş, Azərbaycanın Milli Ordusunun formalaşdırılması, nizami silahlı qüvvələrin yaradılması daha vacib məsələ kimi qarşıya qoyulmuşdur. Ordu quruculuğunda həyata keçirilən islahatlar nəticəsində orduda hərbi nizam-intizam gücləndirilmiş, fərarilik hallarına son qoyulmuş, əksinə, ordu sıraları gündən-günə genişlənmişdir.

1994-cü il may ayının 12-də Ermənistan-Azərbaycan münaqişəsində ulu öndərin gərgin əməyi, iradəsi sayəsində atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycan Milli Ordusunun formalaşması və inkişafı daha da sürətlənmiş, ölkənin iqtisadi potensialı gücləndikcə orduya ayrılan xərclər artırılmışdı.

**(davamı 3-cü səhifədə)**



# Qalib ölkənin yenilməz ordusu

## Yüksək döyüş hazırlıqlı peşəkar Silahlı Qüvvələrimiz regionda sabitliyə təminat verir

(əvvəli 1-ci səhifədə)

Ulu öndərin ordu quruculuğu siyasəti Prezident İlham Əliyevin hakimiyyəti dönəmində nəinki uğurla davam etdirildi, həm də miqyas və mahiyyət etibarilə yeni mərhələyə qədəm qoydu. Dövlət quruculuğu strategiyasının uğurla reallaşdırılması, ölkədə güclü iqtisadi potensialın və böyük maliyyə imkanlarının yaradılması müasir ordu quruculuğu və hərbi məsələlərin yüksək səviyyədə həll edilməsinə imkan yaratdı. Belə ki, hər il dövlət büdcəsindən müdafiə xərclərinə böyük həcmdə vəsait ayrıldı, ölkənin müdafiə sənayesi yaradıldı, ordu ən müasir silahlarla təchiz edildi, ölkəmizin hərbi sahədə əməkdaşlıq əlaqələri genişləndirildi. Müasir ordu quruculuğu istiqamətində ölkə başçısının atdığı addımlar, həyata keçirdiyi kompleks tədbirlər cəmi bir neçə il ərzində Azərbaycan ordusunu dünyanın ən qüdrətli orduları sırasında qərarlaşdırdı. Bununla da ölkəmizdə ordu quruculuğunun yeni mərhələsi başlandı. İlham Əliyevin hərbi quruculuq siyasətində Azərbaycan ordusunu dünya hərb sənayesinin ən müasir silahları ilə silahlandırması, müasir hərbi texnikanın idxalına xüsusi diqqət yetirməsi, iqtisadi güc, güclü ordu, milli birlik, beynəlxalq səviyyədə qazanılan uğurlar Vətən müharibəsində möhtəşəm qələbəmizin təminatçısı oldu. Ali Baş Komandan İlham Əliyevin bütün resursları vahid amal uğrunda səfərbər etmək bacarığı, müdrik liderlik keyfiyyəti və bütün bunların fonunda ordumuzu Türkiyə, İsrail, Rusiya, Belarus və s. kimi dövlətlərin müasir hərbi texnikaları ilə təchiz etməsi, onun davamlı modernləşdirilməsi prosesini həyata keçirməsi İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan ordusu qarşısındakı üstünlüyünü, sözün həqiqi mənasında məğlubedilməzliyini təmin etdi.

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində misilsiz rəşadət göstərən, güclü və müasir, qarşısına qoyulmuş bütün vəzifələri yerinə yetirmək qüdrətinə malik olan Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində tarixi ədaləti qan tökərək, şəhid verərək bərpa etdi. Cəmi 44 gün ərzində torpaqlarını düşməndən azad edən rəşadətli Ordumuz müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən dünyaya sübut etdi ki, ədalətin qarşısında heç bir saxtakarlıq qalib gələ bilməz. 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə dünya miqyasında ən güclü ordular sırasında yer tutan, ən müasir silahlarla, texnika ilə təchiz edilən Ordumuzun əsgər və zabitləri hər günü bir tarixə dönən Zəfərimizi yazdı. Ən müasir, beşinci nəsil silahlarla təmin olunmuş Azərbaycan Ordusu torpaqlarımızı işğalçılardan azad edərək bir gün belə geri addım atmadan Vətən müharibəsində rəşadət göstərdi.

44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimizin apardığı uğurlu əməliyyatlar, Şuşa uğrundakı döyüşlərdə sıldırım qayalara dırmaşaraq düşməni yalın əl, bıçaq və yüngül atıcı silahlarla məğlub etməsi, Qələbəyə aparan döyüş yolu dünyanın ən məşhur hərbi institutları, ABŞ, Rusiya, Çin və s. dövlətləri tərəfindən araşdırılmaqda, ətraflı şəkildə öyrənilməkdədir. Hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bu müharibəni XXI əsrin müharibəsi adlandırırlar. Bütün bunlar isə şanlı Azərbaycan ordusunun, bu ordunun Ali Baş Komandanı İlham Əliyevin gücündən, iradəsindən, qətiyyətindən, özünəməxsus bacarıq və səriştəsindən xəbər verir.

Bu gün dünyanın ən güclü ordularının reytinqində 52-ci yerdə qərarlaşan Azərbaycan Ordusunun arsenalında hərbi gücümüzün göstəricisi olan yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən qurğular, döyüş təyyarələri, hərbi və nəqliyyat helikopterləri, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri mövcuddur. Gündən -günə hərbi qüdrətini möhkəmləndirən, ən müasir silahlar və hərbi texnika ilə təchiz edilən Silahlı Qüvvələrimiz bu gün möhkəm intizam, vətənpərvərlik, yüksək mənəvi mübarizlik ruhu və döyüş qabiliyyəti ilə səciyyələnir. İlham Əliyevin Ali Baş Komandan kimi Azərbaycan Respublikası Silahlı Qüvvələrində formalaşdırdığı yüksək döyüş əzmi, vətən sevgisi, fədakarlıq keyfiyyəti özünü 44 günlük Vətən müharibəsində bütün aydınlığı ilə büruzə verdi. Ölkə başçısı Prezident İlham Əliyevin dediyi kimi: "bizi irəliyə Vətən sevgisi aparırdı, xüsusi təyinatlılar bu amalla sinəsini qabağa verirdi".

Azərbaycan İkinci Qarabağ müharibəsində tarixi ədaləti bərpa edərkən Ordumuzun Xüsusi Təyinatlıları xalq, tarix, gələcək nəsillər qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirərək misilsiz qəhrəmanlıqlar göstərdilər. Onların Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinin nümunəsinə çevrildi. Müharibənin ilk günündən sonuna qədər Xüsusi Təyinatlılar dayanmadan, durmadan irəli gedərək torpaqlarımızın işğaldan azad olunmasında hünər, rəşadət, mətinlik nümayiş etdirdilər. Əbəs deyil ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin şəxsi heyəti qarşısında çıxış edərkən demişdir: "Mən sizinlə fəxr edirəm. Bütün Azərbaycan xalqı sizinlə fəxr edir. Ermənistan, Ermənistan silahlı qüvvələri Azərbaycan xüsusi təyinatlılarının adı gələndə titrəməyə başlayırlar. Onların canlarında olan bu xof bu günə qədər çıxmayıb və çıxmayacaq".

Müzəffər Ordumuzun 44 gün ərzində düşmənlə döyüş meydanında üz-üzə, göz-gözə savaşaraq qazandığı Böyük Qələbədə Ali Baş Komandanın qətiyyətli mövqeyi, xalqımızın birliyi, həmrəyliyi və Azərbaycan əsgərinin rəşadəti, şücaəti düşmənin müqavimətini qıraraq 30 illik həsrətimizə son qoydu. Bu möhtəşəm qələbədə hələ 90-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyevin Naxçıvanda əsasını qoyduğu Heydər Əliyev adına Hərbi Liseyin yetirmələri, Naxçıvan Xüsusi Təyinatlıları da xüsusilə əvəzsiz qəhrəmanlıqlar, hünər göstərdilər.

Ölkə başçısı İlham Əliyev Naxçıvan Muxtar Respublikasına 15-ci səfəri zamanı bir sıra sosial-iqtisadi obyektlərin açılışını edərək demişdir: "Naxçıvanın müdafiə potensialının möhkəmlənməsinə həmişə böyük diqqət göstərilib. Təsadüfi deyil ki, mənim göstərişimlə Naxçıvanda Ümumqoşun Əlahiddə Ordu yaradılmışdır və ordu ən müasir silah və texnika ilə təchiz edilmişdir. Bu gün Naxçıvan ordusunda olan hərbi texnika deyə bilərəm ki, bəlkə də bəzi qabaqcıl ölkələrdə olan texnikadan üstündür. Çünki Naxçıvana ən müasir, ən son texnologiyaya əsaslanmış texnika gətirilir. Deyə bilərəm ki, bütövlükdə Azərbaycan Ordusuna xaricdən gətirilmiş texnikaların böyük əksəriyyətinin nümunələri Naxçıvan Muxtar Respublikasında mövcuddur... İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi...".

Ali Baş Komandan İlham Əliyev Ordumuzu dünya hərb sənayesinin ən müasir nailiyyətləri ilə silahlandıran sərkərdədir. Belə ki, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın Türkiyə və İsraildən aldığı kəşfiyyat və zərbə dronları düşmən hədəflərinin müəyyən edilməsi və məhv edilməsində mühüm rol oynamış, nəticədə işğalçı orduya məxsus, dəyəri milyonlarla dollarla hesablanan hərbi texnika, hava hücumundan müdafiə sistemləri, artilleriya qurğuları məhv edilmişdi. Eyni zamanda, xarici dövlətlərdən alınan müasir hərbi texnika və raket sistemləri Vətən müharibəsi zamanı Ermənistanın hərbçilərimizə və mülki insanlarımıza qarşı tətbiq etdiyi ballistik raketlərin havadaca zərərsizləşdirilməsində uğurla istifadə edilmiş, məhz bunun sayəsində yaşayış məntəqələrimizi və əsgərlərimizi hədəf alan bir sıra raketlər, o cümlədən düşmənin Şuşaya atdığı "İsgəndər-M" raketlərinin bir çoxu havadaca vurulmuşdur. Nəticədə, sadəcə artilleriya və raket sistemlərimizin deyil, mülki insanlarımızın, əsgər və zabitlərimizin təhlükəsizliyi təmin edilmişdir. Təkcə Türkiyədən alınan dronlar vasitəsilə Azərbaycan Ordusu Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişdir. Müasir tələblərə cavab verən müdafiə sənayesinə malik ölkələrdən biri olan Azərbaycan həm də ən müasir silahların ixracatçısıdır. Ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Maddi-texniki bazasının daha da gücləndirilməsi və təkmilləşdirilməsi nəticəsində bu gün Azərbaycan Ordusu daha döyüşkən, güclü döyüş qabiliyyətli orduya çevrilir.

44 günlük Vətən müharibəsi müasir hərbi-texniki nailiyyətlərin Azərbaycan tərəfindən geniş və peşəkarlıqla tətbiqi ilə xarakterizə olunur. Bunlardan biri də pilotsuz uçuş aparatlarının - dronların geniş tətbiqi ilə bağlı olmuşdur. Xüsusilə də "Harop", "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatları vasitəsilə işğalçılara ağır zərbələr endirən Azərbaycan sərhədçiləri 290 düşmən hədəfini məhv etmişdir. DSX dronlarının əsas hədəflərindən biri də düşmənin zenit-raket qurğuları, tank və artilleriya sistemləri olmuşdur. Düşmənin bu sistemlərinin sıradan çıxarılması onu mühüm atəş dəstəyindən məhrum etməklə yanaşı, fəal hücum əməliyyatı həyata keçirən ordumuzun canlı qüvvəsinin, habelə texnikasının qorunması, müdafiə olunması baxımından da mühüm rol oynamışdır.

Müharibə bitdikdən sonra Azərbaycan Ordusunun maddi-texniki bazasının və eyni zamanda hərbi bilik və təcrübələrinin möhkəmləndirilməsi dövlət siyasətinin ən vacib istiqamətinə çevrilib. Bu baxımdan, postmüharibə dönəmində Azərbaycan Ordusunda həyata keçirilən islahatlardan biri də Xüsusi Təyinatlı Qüvvələrin sayının iki dəfə artırılması və bu prosesin bu gün də davam etməsi ilə bağlıdır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 23-cü ildönümü münasibətilə bu il aprelin 30-da Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində olarkən xüsusi təyinatlıların 8 Noyabr zəfərinin əldə edilməsindəki mühüm roluna toxunmuşdur. Elə həmin çıxışında dövlət başçısı bildirmişdi ki, müharibədən sonra Xüsusi Təyinatlı Qüvvələrin sayı iki dəfə artırılıb. Şübhəsiz, Xüsusi Təyinatlı Qüvvələrin sayının iki dəfə artırılması hər şeydən öncə, Vətən müharibəsində öz qəhrəmanlığı ilə tarix yazan qəhrəmanlarımızın peşəkarlığına və bu hərbi birləşmənin perspektivinə olan inamın göstəricisidir.

Son vaxtlar ordudakı islahatlar fonunda həyata keçirilən addımlardan biri də Komando briqadasının yaradılması oldu. Azərbaycan hərb tarixi baxımından mühüm yenilik olan bu hadisə Prezident İlham Əliyevin Azərbaycan Ordusuna, onun peşəkarlığının artırılmasına son dərəcə böyük diqqət yetirdiyini bir daha sübut etdi. Ötən il dekabrın 24-də Xocavənd rayonunun Hadrut qəsəbəsində yeni hərbi hissənin - Komando briqadasının açılışında iştirak edən Ali Baş Komandan demişdir: "Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bax, bu briqadalarda xidmət edəcək. Bu, bizim ordu gücümüzü böyük dərəcədə artıracaq".

Ən son model döyüş texnologiyaları ilə gücləndirilən Azərbaycan Ordusunda həm də yüksək səviyyəli təlimlər aparılır. Belə ki, bu ilin fevral ayında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin NATO ilə 2022-ci il üçün Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramı çərçivəsində Silahlı Qüvvələrin Hərbi Akademiyasında əldə düzəldilmiş partlayıcı qurğulara qarşı tədbirlər mövzusunda təlim kursu keçirilmiş, kursda dinləyicilərə NATO-nun əldə düzəldilmiş partlayıcı qurğulara qarşı tədbirlər zamanı birgə fəaliyyətlərlə bağlı müxtəlif sahələr üzrə brifinqlər təqdim olunmuşdur. Bu ilin aprel ayında isə Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında NATO-nun Niderland Krallığında yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən "Hərbi ictimai əlaqələr" mövzusunda təlim kursu keçirilmişdir.

44 gün ərzində düşmənə qan uddura-raq torpaqlarımızı yağı düşməndən azad edən rəşadətli Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində şanlı Qələbəmizin təminatçısı olaraq Zəfər tariximizi yazdı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsinin şəxsi heyəti qarşısında çıxışı zamanı bu tarixi yüksək qiymətləndirərək demişdir: "Bu, tariximizin və mənim həyatımda bəlkə də ən yaddaqalan, ən sevincli, ən qürurlu anlardan biridir, bəlkə də birincisidir. Ermənistanın kapitulyasiya aktına imza atmaq mənim həyatımda ən qürurlu hadisədir". Vətən məhəbbəti, torpaq sevgisi, bayraq eşqi və Ali Baş Komandan hünəri ilə silahlanmış Azərbaycan Ordusu xalqımızın tarixinə hər zaman qürurla öyünəcəyi qəhrəmanlıq salnaməsi yazdı.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**